# Dövlət başçısının tapşırığı ilə cəbhə bölgəsində müxtəlif infrastruktur layihələri həyata keçirilir



Prezident İlham Əliyev iyunun 3-də Tərtər rayonuna səfər çərçivəsində Ümummilli Lider Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, Dövlət Rəmzləri Muzeyinin, rayonun Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolunun, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının və "Tərtər" elektrik yarımstansiyasının yenidənqurmadan sonra açılışında iştirak etmişdir.

Dövlət başçısı həmçinin Ağdam rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə olmuş və Tərtər Olimpiya İdman Kompleksinin açılışında da iştirak etmişdir.

Azərbaycan.- 2020.- 4 iyun. S. 1.